**Keyfiyyətli xidmət vergi ödəyicisinin məsuliyyətini artırır**

Özündə müasir memarlıq cizgilərini qabarıq təcəssüm etdirən möhtəşəm kompleks «Qırmızı qəsəbə»nin yaxınlığında - Qubanın qələbəlikdən, səs-küydən uzaq, dağlarla dövrələnmiş sakit bir məkanında inşa olunub. Yaşıllığı, səliqə-sahmanı, abadlığı ilə göz oxşayan geniş ərazidə yan-yana sıralanan inzibati tikililər möhtəşəm görünüşü ilə bir-birini tamamlayaraq işgüzar mənzərə yaradır. Mövcud infrastruktur və maddi-texniki baza, müasir informasiya-kommunikasiya texnologiyaları burada əməkdaşların normal fəaliyyətinə və məsləhət üçün onlara mütəmadi müraciət edən vətəndaşlara yüksək səviyyəli xidmət göstərməsinə imkan verir.

***İş adamlarının üz tutduğu ünvan***

Möhtəşəm dağ massivləri, füsunkar meşələri, büllur çeşmələri ilə hər zaman yerli və xarici turistlərin sevimli məkanı olmuş Qubanın son vaxtlar abad, işıqlı küçələri, yaşıl park və xiyabanları, müasir infrastrukturu ilə cəlbediciliyi daha da artıb. Xüsusilə yay mövsümündə təbiət qoynunda istirahət üçün rayona üz tutanların sayının artması burada işgüzar mühitin daha da canlanmasına, ticarət və pullu xidmətlərin həcminin artımına səbəb olur. Ümumilikdə, şimal bölgəsinin böyük turizm potensialı son illərdə Quba ilə yanaşı, Xaçmaz, Qusar və Şabran rayonlarında da sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyənlərin sayının artım dinamikasına müsbət təsirini göstərir. İşgüzar həyata başlmaq istəyənlərin üz tutduqları ilk ünvan isə Vergilər Nazirliyinin Qubada yerləşən 3 saylı Ərazi Vergilər İdarəsi (ƏVİ) olur. Nazirliyin vergi ödəyicilərinə xidmətlərin daimi olaraq təkmilləşdirilməsi və müasir dövrün tələbləri səviyyəsində qurulması sahəsində tətbiq etdiyi yeniliklər, müvafiq qərar və təlimatlar idarənin fəaliyyətinin əsasını təşkil edir. Xidməti personalın tələbkarlıq, məsuliyyət və peşəkarlığa əsaslanan çevik fəaliyyətinin nəticəsidir ki, bu gün şimal bölgəsində fiziki və hüquqi şəxslərə göstərilən xidmətlərin çeşidi və səviyyəsi paytaxtla müqayisədə heç də geri qalmır. 3 saylı ƏVİ-yə bilavasitə müraciət edənlər, əsasən, Quba rayonu hüdudlarında çalışan iş adamlarıdır. Son illərdə Qusar, Xaçmaz və Şabranda vergi ödəyiciləri üçün normal şəraitə və texniki imkanlara malik xidmət mərkəzlərinin yaradılması isə həmin rayonlardakı vergi ödəyicilərinin işini nəzərəçarpacaq dərəcədə asanlaşdırıb. Əvvəllər müxtəlif xidmət və məsləhətlər üçün uzun məsafə qət edərək Qubaya gəlmək məcburiyyətində qalan, vaxt və maliyyə itkisinə məruz qalan fiziki və hüquqi şəxslər indi məhz yaşadıqları rayonlarda yaradılmış vergi ödəyicilərinə xidmət mərkəzlərinə üz tutur, ən müxtəlif xidmətlərdən səmərəli şəkildə bəhrələnirlər. Həmin mərkəzlərdə vergi xidməti əməkdaşları ilə yanaşı, Azərbaycan Sahibkarlar İttifaqları (İşəgötürənlər) Konfederasiyasının təmsilçiləri də çalışırlar.

***Xidmətlərin çeşidi və keyfiyyəti artır***

3 saylı ƏVİ-nin Vergi ödəyicilərinə xidmət şöbəsinin əməkdaşları inzibati binaya daxil olan hər bir vergi ödəyicisini xüsusi diqqət və səmimiyyətlə qarşılayırlar. İdarənin birinci mərtəbədə yerləşən, müasir kompüterlər və sürətli internetlə, vergilərə aid maarifləndirici buklet, broşür və təlimat kitabçaları ilə təchiz olunmuş kiçik «xidmət köşkləri»nə yaxınlaşan sahibkarlar onları maraqlandıran məsələlərlə bağlı birbaşa müraciət edirlər. Burada eyni vaxtda dörd vergi ödəyicisinə müxtəlif xidmətlərin göstərilməsi mümkündür. İdarənin Vergi ödəyicilərinə xidmət şöbəsinin rəisi Faiq Hacıyev deyir ki, iş günləri səhər saat 9.00-dan axşam 18.00-dək fəaliyyət göstərən mərkəzdə gündəlik 20-30 nəfərədək vergi ödəyicisinə xidmət göstərilir. 2012-ci ilin birinci yarısında 3 saylı ƏVİ-nin xidmət şöbəsində 1857 vergi ödəyicisi qəbul edilərək onlara 7300-dən çox xidmət göstərilib. Bu xidmətlərə vergi qanunvericiliyinə dair sualların cavablandırılması; hesabat, ərizə, arayış və digər sənədlərin tərtibatı; elektron sənəd mübadiləsi və elektron imza üzrə xidmətlərin göstərilməsi; fiziki şəxslərin real vaxt rejimində (onlayn) qeydiyyatı; nəzarət-kassa aparatlarının, habelə təsərrüfat subyektinin onlayn qeydiyyata alınması və qeydiyyatdan çıxarılması; fəaliyyətin bərpası, dayandırılması və ona xitam verilməsi; uçot məlumatlarında dəyişiklik edilməsi üzrə elektron müraciətlərin təşkili; bəyannamələrin elektron formada doldurulması və göndərilməsi, habelə bu sənəddəki uyğunsuzluğun yoxlanılması; vergi borclarının

məbləğinin göstərilməsi; vergi və rüsumların, cərimələrin elektron formada ödənilməsi; POS-terminalların quraşdırılması və onlardan istifadə qaydalarının izahı; yazılı və eləcə də telefonla edilmiş müraciətlərin cavablandırılması və s. məsələlər daxildir.

### *Qusar vergi xidməti mərkəzində müraciətlərə həssaslıqla yanaşılır*

Qusar şəhərində yerləşən vergi ödəyicilərinə xidmət mərkəzi 2012-ci ilin fevralından fəaliyyət göstərir. Zəngin infrastrukturu, maddi-texniki bazası, müasir iş üslubu və keyfiyyətli xidməti ilə ilk gündən vergi ödəyicilərində maraq doğuran mərkəz qısa müddətdə onların etimadını qazana bilib. Mərkəzə daxil olarkən üzləşdiyimiz işgüzar ab-hava buranın həqiqətən də vergi ödəyicilərinin fəal məsləhət ocağı olduğuna şübhə yeri qoymur. Vergi xidməti əməkdaşı Fuad Ağayev kompüter masası arxasında vergi ödəyicilərinə elektron xidmətlərdən istifadə qaydalarını öyrədir, bəyannamələrin verilməsi qaydalarını izah edir. Xidmətin digər əməkdaşı, ASK-nin təmsilçisi Namiq Sultanov isə masa arxasında bir neçə vergi ödəyicisi ilə söhbət aparır, onlara Vergi qanunvericiliyinə edilmiş dəyişikliklərlə bağlı zəruri təlimatlar, izahatlar verir. Xüsusi rəflərdə yerləşdirilən vergi qanunvericiliyinə dair vəsaitlərlə - buklet və broşürlərlə tanış olan vergi ödəyiciləri müxtəlif suallara cavab tapmağa çalışırlar. Xidmət əməkdaşlarına ünvanlanan sualların çoxu isə Qusar sahibkarlarının vergi sahəsində maariflənmək, müxtəlif elektron xidmətlərdən sərbəst şəkildə yararlanmaq istəyini nümayiş etdirir. Qusar rayonundan olan vergi ödəyicisi Namidar Mustafayev deyir ki, yeni fəaliyyətə başlayan mərkəz iş adamlarının mütəmadi baş çəkdiyi, tez-tez görüşdüyü işgüzar məkandır: «İş adamları olan bir çox dostlarımla xidmət mərkəzində tez-tez görüşürük. Xidmət əməkdaşları bizə zəruri köməyi göstərirlər. Bu gün isə konkret olaraq vergi bəyannamələrinin doldurulması ilə bağlı buraya gəlmişəm». Digər vergi ödəyicisi Şaiq Ramazanov isə mərkəzə şəxsi mağazasında quraşdırılmış POS-terminaldan istifadə qaydalarını öyrənmək üçün gəldiyini deyir: «Qusara qonşu Rusiyadan və başqa ölkələrdən tez-tez turistlər gəlirlər və bəzi hallarda kartla ödəniş etmək istəyirlər. Buna görə də POS-terminaldan istifadəni öyrənməyi vacib sayıram. Xidmət mərkəzində mənə bu proses izah olunub və yaddaş bukletləri verilib. Göstərilən xidmətdən tam razıyam».

Mərkəzin əməkdaşı Namiq Sultanovun sözlərinə görə, qısa müddətdə bura 263 nəfər vergi ödəyicisi müraciət edib və onlara 2200-dən artıq xidmət göstərilib. O, Vergilər Nazirliyinin son illərdə tətbiq etdiyi elektron xidmətlərin rayonda fəaliyyət göstərən fiziki və hüquqi şəxslərin böyük marağına səbəb olduğunu deyir (Xaçmaz və Şabran xidmət mərkəzləri barədə növbəti sayımızda).

Samir Mustafayev